# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (1918–1920)

Müasir suverenlik təfəkkürünün formalaşmasında Şərqdə ilk parlamentli və demokratik idarəetmə modeli kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin müstəsna rolu olmuşdur. Xalqın iradəsinə əsaslanan respublika prinsipləri gerçəkləşdirilməklə, yalnız Azərbaycanın deyil, bütövlükdə regionun siyasi düşüncəsində yeni mərhələnin əsası qoyulmuşdur.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmiş, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirmişdir. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, sərhədləri müəyyən edilmiş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmiş, Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılmışdır. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynamışdır. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

1920-ci il aprelin 28-də sovet işğalı nəticəsində AXC süquta uğradı. Növbəti 70 il ərzində Azərbaycan Sovet Sosialist Respublikası kimi formal müstəqil, lakin real suverenlikdən məhrum bir siyasi qurumda yaşadı. Bütün idarəetmə və qərarverici mexanizmlər Moskvadan idarə olunurdu.

Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini rəsmən elan edən sənəd olan “İstiqlal Bəyannaməsi”nin qəbul olunduğu gün - 28 may tarixi 1990-cı ildən Azərbaycanda Müstəqillik Günü kimi qeyd edilir.

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə imzaladığı İstiqlal Bəyannaməsinin orijinal nüsxəsi Azərbaycan Tarix Muzeyində saxlanılır. Sənəd 1918-ci ildə Cümhuriyyət nümayəndə heyətinin Paris Sülh Konfransına apardığı İstiqlal Bəyannaməsinin orijinal nüsxələrindən biridir.

Birinci Dünya müharibəsinin sonunda, 1919-cu ildə sülh müqavilələrinin bağlanması və yeni dünya xəritəsinin formalaşması üçün Parisdə Sülh Konfransı çağırılmışdır. Gənc müstəqil Azərbaycan hökuməti 27 ölkə ilə yanaşı, dövlətin nümayəndə heyətinin də həmin konfransda iştirakını qərara alır. Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Parisə yollanan nümayəndə heyətinin məqsədi Azərbaycanın gənc müstəqil dövlət kimi de-fakto tanınmasına nail olmaq idi. Nümayəndə heyəti özü ilə əsas sənəd kimi İstiqlal Bəyannaməsinin Azərbaycan dilində əski əlifba ilə yazılmış nüsxəsini və fransız dilinə tərcümə olunmuş variantını aparmışdır.


Proclamation
de l'Indépendance de l'Azerbaidjan

Le 28 mai 1918 à Tiflis, le Conseil National de l'Azerbaidjan a publié le décret suivant sur l'indépendance de l'Azerbaidjan

Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyin bir illiyi qeyd edilən gün - 1919-cu il mayın 28-də Sülh Konfransında əsas fiqurlardan biri sayılan ABŞ prezidenti Vudro Vilson ilə Azərbaycan nümayəndə heyətinin görüşü olmuşdur. Görülən işlər nəticəsində 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası Azərbaycanı de-fakto müstəqil dövlət kimi tanımışdır. Amma Azərbaycanın işğala məruz qalaraq müstəqilliyini itirməsi səbəbindən nümayəndə heyəti Azərbaycana qayıda bilməmiş, sənədlər isə itmişdir.



2014-cü il 13 mayda prezident İlham Əliyevin Azərbaycan və fransız dillərində nüsxələrinin Azərbaycan Tarix Muzeyinə təqdim edilməsini qərara almışdır. Sənəd Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini Əli Əsədov tərəfindən təqdim olunmuşdur. Azərbaycan Tarix Muzeyinin əməkdaşı Səbuhi Əhmədov sənədin Londonda tapıldığını söyləyib. Muzeyin əməkdaşı sənəd üzərində müəyyən filoloji təhlil apardıqlarını (mürəkkəb və kağız üzərində), bu sənədin orijinal olduğunu, məxsusi Paris Sülh konfransına yollanan Azərbaycan nümayəndə heyəti üçün 1919-cu ildə hazırlandığını bildirib.



Azərbaycan Tarix Muzeyinin eksponatları sırasında İstiqlal Bəyannaməsi ilə bağlı unikal eksponat qorunur və nümayiş olunur. Eksponat 65 x 50 sm ölçüləri olan kollaj formasında tərtib olunmuşdur. Eksponatın mərkəzində 1918-ci il mayın 28-də imzalanmış İstiqlal Bəyannaməsinin fotosurəti bərkidilmişdir. Fotosurətin sağ tərəfində müxtəlif Azərbaycan xalçalarının ornamentlərindən tərtib olunmuş xalça təsviri verilmişdir. Ondan aşağıda XX əsrin əvvəllərində Odlar Yurdu olan Azərbaycanın rəmzi kimi qəbul olunan Suraxanı Atəşgahının təsviri nəzərə çarpır. Kompozisiyanın aşağı kənarında Bakı buxtasının təsvirini görmək olar. Beləliklə, rəssam Azərbaycan müstəqilliyinin rəmzi olan İstiqlal Bəyyannaməsi, əbədi odların odları bildirən Atəşgahı, xalqın zəngin mədəniyyətini bildirən xalçanı, həmçinin paytaxtın təsvirlərindən ibarət dərin mənalı kompozisiya yaratmışdır.

Unikal eksponatın müəllifini təsvirin aşağı sağ küncündə verilmiş avtoqraf bildirir. Bu Azərbaycanın Xalq rəssamı Əzim Əzimzadənin avtoqrafıdır (1880–1943). Əsasən satirik rəssam kimi tanınan Əzimzadə 1918-ci ildə Azərbaycanın müstəqilliyinin bəyan olunmasının səmimi qəlbdən alqışlamış, onun şərəfinə belə maraqlı kompozisiya yaratmışdır. Hazırda eksponat Muzeyin Azərbaycan Xalq Cümhuriyyəti ekspozisiyasında nümayiş olunur.

2007-ci il 25 may-da İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış İstiqlal bəyannaməsi abidəsinin açılışı olub. Qranitdən və ağ mərmərdən yonulmuş, abidə üzərinə 1918-ci il mayın 28-də Tiflisdə qəbul olunmuş "İstiqlal Bəyannaməsi"nin həm əski, həm də latın əlifbası ilə mətni həkk olunub. Açılış mərasimində prezident İlham Əliyev iştirak edib. Abidə Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunun binası ilə Azərbaycan Dövlət İqtisad Universitetinin binası arasında ucaldılıb.

2016-cı ildə Azərbaycanın İstiqlal Bəyannaməsinin və Paris Sülh Konfransı əsasında "Əbədi ezamiyyət" filmi çəkilib.

## İstiqlal Bəyannaməsi

Böyük Rusiya inqilabının cərəyanı ilə dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə Zaqafqaziyanın rus orduları tərəfindən tərkinə mövcud bir vəziyyəti siyasiyyə hasil oldu. Kəndi qəvayi-məxsusələrinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Vəqayi-siyasiyyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqaziya Qoşma Xalq Cümhuriyyəti cüzindən çıxıb da müstəqil Gürcü Xalq Cümhuriyyəti təsisini səlah gördü. Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyyəsi üzündən hasil olan vəziyyət hazireyi-siyasiyyə və məmləkət daxilində bulunun misilsiz anarxiya Cənubi-Şərqi Zaqafqaziyadan ibarət bulunun Azərbaycana, dəxi bulunduğu daxili və xarici müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor. Buna binaən arai-ümumiyyə ilə intixab olunan Azərbaycan Şurai milliyyeyi-islamiyyəsi bütün cəmaətə elan ediyor ki:

1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin şəkili-idarəsi Xalq Cümhuriyyəti olaraq təqarrür ediyor.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlərlə münasibəti – həsənə təsisinə əzm edər.

4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrəvində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin edər.

5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bil cümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.

6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arai-ümumiyyə ilə intixab olunmuş Şurai Milli və Şurai-Milliyə qarşı məsul hökuməti-müvəqqəti durur.

Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyli, Nəriman bəy Nərimanbəyov, Cavad Məlik-Yeqanov, Mustafa Mahmudov.